**Region və sahə iqtisadiyyatı. Regional and sectoral economics**
**2026 (1). səh. 65-77. 2026 (1). pp. 65-77. 2026 (1). стр. 65-77.**
**UOT: 338.45:331.5; JEL: J21, J24, L60, D24.**
**https://doi.org/10.59849/2519-8130.2026.1.65**

**Nicat Rəşad oğlu Muradlı**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*İqtisadiyyat İnstitutu, doktorant*

# AZƏRBAYCANIN EMAL SƏNAYESİNDƏ İŞ QÜVVƏSİNDƏN İSTİFADƏNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## XÜLASƏ

Məqalədə Azərbaycan Respublikasının emal sənayesi sahələrində iş qüvvəsindən istifadənin mövcud vəziyyəti kompleks şəkildə təhlil edilmiş, məşğulluq səviyyəsi, işçi qüvvəsinin sahə və regional bölgüsü, qadın məşğulluğunun xüsusiyyətləri, əmək şəraiti və iş qüvvəsinin sabitliyinə təsir edən amillər qiymətləndirilmişdir. Araşdırma göstərir ki, emal sənayesi ölkə iqtisadiyyatında və sənaye sektorunda məşğulluğun təmin edilməsində mühüm rol oynayır. Son illərdə emal sənayesində çalışanların sayında müəyyən artım müşahidə olunsa da, müstəqillik dövrü ilə müqayisədə bir sıra sahələrdə məşğulluq səviyyəsi əhəmiyyətli dərəcədə aşağı olaraq qalır. Tədqiqat nəticələri göstərir ki, son beş ildə qida məhsulları, içki, dəri və ayaqqabı, kağız və karton, rezin və plastik kütlə məmulatları, tikinti materialları, hazır metal məmulatları və avtomobil istehsalı sahələrində məşğulluq artmışdır. Eyni zamanda emal sənayesində çalışan qadınların sayı və xüsusi çəkisi yüksəlsə də, qadın əməyinin sahələr və regionlar üzrə paylanmasında tarazlıq tam təmin edilməmişdir. Müəyyən sahələrdə qadın əməyindən istifadə imkanları geniş olsa da, həmin sahələrin kifayət qədər inkişaf etməməsi qadın məşğulluğunun artırılmasını məhdudlaşdırır. Məqalədə emal sənayesində çalışanların böyük hissəsinin Bakı şəhəri və Abşeron-Xızı iqtisadi rayonunda cəmləşdiyi, digər iqtisadi rayonlarda isə mövcud əmək ehtiyatlarından tam istifadə olunmadığı müəyyən edilmişdir. Bu vəziyyət regionlar üzrə məşğulluq səviyyəsində və işsizlik göstəricilərində fərqlərin yaranmasına səbəb olur. Araşdırma həmçinin emal sənayesinə yönəldilən investisiyaların azalmasını, müəssisələrin əksəriyyətinin mikro və kiçik sahibkarlıq subyektlərindən ibarət olmasını, əməkhaqlarının nisbətən aşağı səviyyədə qalmasını və əmək şəraitinin bir sıra hallarda qənaətbəxş olmamasını işçi axıcılığını artıran əsas amillər kimi qiymətləndirir. Müəllif tərəfindən emal sənayesinin regional inkişafının sürətləndirilməsi, yeni iş yerlərinin yaradılması, qadın və kişi əməyinin tətbiq olunduğu sahələr arasında tarazlığın təmin edilməsi, əmək şəraitinin yaxşılaşdırılması, işçi qüvvəsinin sabitliyinin yüksəldilməsi və əmək bazarı üzrə statistik məlumat bazasının genişləndirilməsi istiqamətində elmi əsaslandırılmış təklif və tövsiyələr irəli sürülmüşdür.

**Açar sözlər:** emal sənayesi,işçi qüvvəsi, məşğulluq. qadın məşğulluğu, əmək bazarı, iqtisadi rayonlar, investisiyalar,

**Nicat Rashad Muradlı**
*Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan, doctoral student*

# ANALYSİS AND EVALUATİON OF THE CURRENT STATE OF LABOR FORCE UTİLİZATİON İN AZERBAİJAN’S MANUFACTURİNG İNDUSTRY

## ABSTRACT

The article provides a comprehensive analysis of the current state of labor force utilization in the manufacturing industries of the Republic of Azerbaijan. It evaluates employment levels, the sectoral and regional distribution of labor resources, the characteristics of female employment, working conditions, and the factors affecting workforce stability. The study demonstrates that the manufacturing sector plays a significant role in ensuring employment and supporting the development of the country's industrial sector. Although the number of employees in manufacturing has increased in recent years, employment levels in several industries remain considerably lower compared to the early years of independence. The findings indicate that over the past five years employment has increased in the production of food products, beverages, leather goods and footwear, paper and cardboard, rubber and plastic products, construction materials, fabricated metal products, and motor vehicles. At the same time, both the number and the share of women employed in manufacturing have risen. However, a balanced distribution of female labor across industries and regions has not yet been achieved. While several industries offer substantial opportunities for female employment, the insufficient development of these sectors limits the expansion of women's participation in the labor market. The study also reveals that the majority of manufacturing employees are concentrated in Baku City and the Absheron-Khizi Economic Region, whereas labor resources in other economic regions are not fully utilized. This situation contributes to significant regional disparities in employment and unemployment levels. Furthermore, declining investment in manufacturing, the predominance of micro and small enterprises, relatively low wages, and inadequate working conditions are identified as key factors contributing to labor turnover. The author proposes a set of scientifically grounded recommendations aimed at accelerating the regional development of manufacturing industries, creating new jobs, ensuring a balanced distribution of male and female labor, improving working conditions, enhancing workforce stability, and expanding the statistical information base of the labor market.

**Keywords:** manufacturing industry, labor force, employment, female employment, labor market, economic regions, investment, working conditions, regional development.

**Ниджат Рашад оглы Мурадлы**
*Докторант Института Экономики Министерства Науки и Образования Азербайджанской Республики*

# АНАЛИЗ И ОЦЕНКА СОВРЕМЕННОГО СОСТОЯНИЯ ИСПОЛЬЗОВАНИЯ РАБОЧЕЙ СИЛЫ В ОБРАБАТЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

## АННОТАЦИЯ

В статье проведён комплексный анализ современного состояния использования рабочей силы в отраслях обрабатывающей промышленности Азербайджанской Республики. Оценены уровень занятости, отраслевое и региональное распределение трудовых ресурсов, особенности женской занятости, условия труда, а также факторы, влияющие на стабильность рабочей силы. Исследование показывает, что обрабатывающая промышленность играет важную роль в обеспечении занятости населения и развитии промышленного сектора страны. Несмотря на определённый рост численности занятых в последние годы, по сравнению с периодом независимости уровень занятости в ряде отраслей остаётся значительно ниже. Результаты исследования свидетельствуют о том, что за последние пять лет занятость увеличилась в производстве пищевых продуктов, напитков, изделий из кожи и обуви, бумаги и картона, резиновых и пластмассовых изделий, строительных материалов, готовых металлических изделий, а также в автомобилестроении. Одновременно возросли численность и удельный вес женщин, занятых в обрабатывающей промышленности. Однако сбалансированное распределение женской рабочей силы по отраслям и регионам пока не обеспечено. Несмотря на наличие значительного потенциала использования женского труда в отдельных отраслях, недостаточный уровень их развития ограничивает возможности расширения женской занятости. В статье установлено, что основная часть занятых в обрабатывающей промышленности сосредоточена в городе Баку и Абшерон-Хызынском экономическом районе, тогда как в других экономических районах имеющиеся трудовые ресурсы используются не в полной мере. Это приводит к существенным различиям в уровне занятости и безработицы между регионами. Кроме того, среди факторов, способствующих текучести кадров, выделены сокращение объёмов инвестиций в обрабатывающую промышленность, преобладание микро- и малых предприятий, относительно низкий уровень заработной платы и неудовлетворительные условия труда. Автором предложены научно обоснованные рекомендации, направленные на ускорение регионального развития обрабатывающей промышленности, создание новых рабочих мест, обеспечение баланса между сферами применения мужского и женского труда, улучшение условий труда, повышение стабильности рабочей силы и расширение статистической базы данных о рынке труда.

**Ключевые слова:** обрабатывающая промышленность, рабочая сила, занятость, женская занятость, рынок труда, экономические районы, инвестиции, условия труда, региональное развитие.

**Giriş**

Emal sənayesi ölkə iqtisadiyyatında, o cümlədən sənaye sahəsində yaradılan ÜDM-un (Ümumi Daxili Məhsul); ölkə iqtisadiyyatında, o cümlədən sənaye sahəsində muzdla çalışanların xeyli hissəsini təşkil edir və ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Bu səbəbdən də emal sənayesində iş qüvvəsindən istifadənin vəziyyətinin təhlil edilib qiymətləndirilməsinə və onlardan səmərəli istifadə edilməsinə dair təklif və tövsiyələrin işlənib hazırlanmasına böyük ehtiyac vardır.

**Emal sənayesi sahələrində iş qüvvəsindən istifadənin vəziyyətinin təhlili və qiymətləndirilməsi**

Emal sənayesi Azərbaycan iqtisadiyyatının mühüm tərkib hissəsi olub ölkə sənayesində muzdla çalışanların əksəriyyətini özündə birləşdirən iqtisadi fəaliyyət növlərindən birini təşkil edir. Belə ki, 2025-ci ilin əvvəlinə olan rəsmi məlumatlara əsasən respublika iqtisadiyyatında məşğul olan 5029,8 min nəfərin 293,8 min nəfəri və ya 5,8 faizi [1, s.19], sənaye sahəsində məşğul olan 408,4 min nəfərin isə təqribən 73,0 faizi emal sənayesinin payına düşür [1, s.20]. Bu rəsmi məlumatlar onu deməyə əsas verir ki, ölkədə məşğulluğun təmin edilməsində emal sənaye sahəsi mühüm rol oynayır. Aşağıda təqdim edilmiş 1-ci cədvəlin məlumatlarından görünür ki, bütünlükdə götürüldükdə müstəqillik illərində (1991-2024-cü illər) ölkəmizin emal sənayesində muzdla çalışanların sayı 212,1 min nəfər və ya 2,5 dəfədən çox azalaraq 348,1 min nəfərdən 136 min nəfərə düşməsinə baxmayaraq müstəqilliyimizin axır 5 ili (2000-2024-cü illər) ərzində burada çalışanların sayı 4,3 min nəfər və ya 103,3 faiz artaraq 131,7 min nəfərdən 136 min nəfərə gəlib çatmışdır. Bu artım müstəqillik illərində (1991-2024-cü illər) emal sahəsinin cəmi iki sahəsində, yəni kağız və karton istehsalı və kimya sənaye sahələrində baş vermişdirsə, müstəqilliyimizin axır 5 ili (2020-2024-cü illər) ərzində bu sahədə fəaliyyət göstərən 24 sahəsinin 9-da, daha doğrusu 37,5 faizində, yəni qida məhsulları istehsalında (2,8 dəfədən çox); içki istehsalında (1,9 dəfədən çox); dəri və dəri məmulatlarının, ayaqqabılarının istehsalında (1,8 dəfədən çox); kağız və karton istehsalında (11,5 dəfə); poliqrafiya məmulatlarında (108,7 faiz); rezin və plastik kütlə məhsullarının istehsalında (132,7 faiz); tikinti materialları istehsalında (121,4 faiz); hazır metal məhsulları istehsalında (140 faiz); avtomobil və qoşquların istehsalı sahəsində (112,5 faiz) özünü büruzə vermişdir.

Təhlil olunan göstəricilər göstərir ki, emal sənayesində məşğulluğun dinamikası yalnız çalışanların sayındakı dəyişikliklərlə məhdudlaşmır, eyni zamanda sahənin struktur transformasiyasını və iqtisadi inkişafın prioritet istiqamətlərini də əks etdirir. Uzunmüddətli dövrdə müşahidə olunan ümumi azalma iqtisadi sistemin keçid mərhələsinin, istehsalın modernləşdirilməsi proseslərinin və əmək məhsuldarlığının yüksəlməsinin təsiri ilə izah oluna bilər. Bununla yanaşı, son illərdə bir sıra emal sahələrində qeydə alınan məşğulluq artımı istehsal potensialının genişlənməsi, yeni müəssisələrin fəaliyyətə başlaması, investisiya fəallığının yüksəlməsi və daxili tələbin artması ilə əlaqələndirilə bilər. Bu baxımdan, emal sənayesində əmək resurslarının sahələr üzrə yenidən bölgüsü iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun inkişafı və dayanıqlı məşğulluğun formalaşdırılması istiqamətində baş verən keyfiyyət dəyişikliklərinin mühüm göstəricilərindən biri kimi qiymətləndirilə bilər.

Cədvəl 1.

**Azərbaycanın emal sənayesi sahələrində muzdla çalışan işçilərin sayının dinamikası**

| Emal sanayesi sahələri | 1991 | 1995 | 2000 | 2005 | 2010 | 2020 | 2024 | 2024-cü ildə %-lə | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | 1991-ci il | 2000-ci il |
| Emal sənayesi-cəmi | 348,5 | 244,6 | 131,7 | 101,6 | 94,7 | 127,1 | 136,0 | 39,1 | 103,3 |
| O cüm: Qida məhsulları istehsalı | 54,2 | 40,0 | 14,0 | 13,0 | 15,1 | 30,4 | 35,0 | 67,3 | 250,0 |
| İçki istehsalı | - | 6,5 | 3,6 | 4,2 | 5,2 | 7,7 | 7,0 | - | 194,4 |
| Tütün məhsullarının istehsalı | - | 2,5 | 1,4 | 1,2 | 0,6 | 1,1 | 1,3 | - | 92,8 |
| Toxuculuq sənayesi | 50,5 | 42,8 | 17,3 | 10,1 | 5,2 | 2,9 | 8,4 | 16,6 | 48,5 |
| Geyim istehsalı | 34,5 | 13,5 | 7,2 | 2,8 | 2,9 | 3,1 | 4,5 | 13,0 | 62,5 |
| Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 9,0 | 4,0 | 1,8 | 1,0 | 0,7 | 1,9 | 3,3 | 36,7 | 183,3 |
| Ağac emalı və ağacdan məmulatlarının istehsalı | 10,2 | 4,2 | 1,6 | 1,2 | 1,6 | - | - | - | - |
| Kağız və karton istehsalı | 0,9 | 0,6 | 0,2 | 0,3 | 0,6 | 1,5 | 2,2 | 255,5 | 115,0 |
| Poliqrafiya məmulatlarının istehsalı | 3,4 | 2,0 | 2,3 | 2,1 | 1,7 | 2,1 | 2,5 | 73,5 | 108,7 |
| Neft məhsullarının istehsalı | 4,7 | 6,6 | 6,7 | 6,7 | 5,3 | 3,9 | 4,0 | 85,1 | 59,7 |
| Kimya sənayesi | 7,7 | 7,1 | 13,1 | 10,9 | 8,7 | 8,7 | 8,5 | 110,4 | 38,2 |
| Əczaçılıq məhsullarının istehsalı | 1,5 | 1,4 | 0,4 | 0,2 | 0,1 | 0,3 | 0,4 | 26,7 | - |
| Rezin və plastik kütlə məhsullarının istehsalı | 16,6 | 13,7 | 5,2 | 1,8 | 4,0 | 7,0 | 6,9 | 41,5 | 132,7 |
| Tikinti məhsulları istehsalı | 25,2 | 16,8 | 9,8 | 6,6 | 9,2 | 13,5 | 11,9 | 47,2 | 121,4 |
| Metallurgiya sənayesi | 18,7 | 14,8 | 6,8 | 9,7 | 8,3 | 5,7 | 6,4 | 34,2 | 94,1 |
| Hazır metal məhsulları istehsalı | 28,5 | 15,5 | 3,0 | - | - | 4,6 | 4,2 | 14,7 | 14,0 |
| Komputer və digər elektrik avadanlıqlarının istehsalı | 41,9 | 3,0 | 4,6 | 2,3 | 2,2 | 1,6 | 4,0 | 81,6 | 69,5 |
| Elektirik avadanlıqlarının istehsalı | 10,4 | 1,2 | 9,5 | 3,7 | 1,8 | 4,3 | 3,5 | 33,6 | 36,8 |
| Maşın və avadanlıqların istehsalı | 51,8 | 33,6 | 11,6 | 7,3 | 4,8 | 4,4 | 6,3 | 12,3 | 82,1 |
| Avtomobil və qoşquların istehsalı | - | - | 0,8 | 0,3 | 0,6 | 0,7 | 0,9 | - | 112,5 |
| Sair, nəqliyyat vasitələrinin istehsalı | - | - | 3,8 | 4,5 | 4,3 | 1,6 | 1,5 | - | 39,5 |
| Emal sənayesinin digər sahələri | 9,4 | 9,2 | 7,2 | 10,2 | 11,8 | 14,1 | 9,1 | 100,8 | 1072,3 |

**Mənbə:** Cədvəl [2, s. 53–54; 3, s. 13–15] mənbəyi əsasında müəllif tərəfindən hazırlanmışdır.

Emal sənayesinin 15-də, yəni 62,5 faizində muzdla çalışanların sayı 5,9 faizlə (metallurgiya sənayesi) 86,0 faiz arasında (hazır metal istehsalı) tərəddüd etməklə azalması, bir qisminin isə bağlanması ilə izah edilir. Emal sənayesində iş qüvvəsindən istifadənin vəziyyətini xarakterizə edən əsas göstəricilərdən biri də həmin sahələrdə muzdla çalışanların cins tərkibində baş vermiş dəyişikliklərdən ibarətdir. 2-ci cədvəlin məlumatlarından görünür ki, son 5 il ərzində (2020-2024-cü illər) respublikanın emal sənayesində muzdla çalışan qadınların sayının 115,3 faiz artaraq 32160 nəfərdən 37067 nəfərə gəlib çatmasına rəğmən qida məhsulları istehsalında 138,4 faiz artaraq 9903 nəfərdən 13706 nəfərə; tütün məmulatları istehsalında 132,1 faiz artaraq 212 nəfərdən 280 nəfərə; geyim istehsalı sahəsində təqribən 1,7 dəfə (167,7 faiz) artaraq 1946 nəfərdən 3264 nəfərə; kağız və karton istehsalı sahəsində 145,3 faiz artaraq 550 nəfərdən 749 nəfərə; poliqrafiya məhsulları istehsalı sahəsində 136,4 faiz artaraq 607 nəfərdən 828 nəfərə; əczaçılıq məhsulları istehsalı sahəsində 1,6 nəfərdən çox (162,1 faiz) artaraq 129 nəfərdən 210 nəfərə; hazır metal məmulatlarının istehsalı sahəsində 100,9 faiz artaraq 402 nəfərdən 406 nəfərə; maşın və avadanlıqların istehsalı sahəsində 138,4 faiz artaraq 95 nəfərdən 137 nəfərə; mebellərin istehsalı sahəsində 124,4 faiz artaraq 1438 nəfərdən 1717 nəfərə; neft sənaye məhsulları istehsalı sahəsində təqribən 1,7 dəfə (168,2 faiz) artaraq

264 nəfərdən 444 nəfər nəhayət maşın və avadanlıqların istehsalı sahəsində isə təqribən 1,9 dəfə (188,7 faiz) artaraq 638 nəfərdən 1204 nəfərə gəlib çatmasına rəğmən onun bir sıra sahələrində muzdla çalışan qadınların sayı 0,2 faizlə (tikinti materialları istehsalı) 81 faiz (neft məhsulları istehsalı) arasında tərəddüd etməklə azalmışdır. Bütün bu dəyişikliklər nəticəsində bir qrup emal sənaye sahələrində muzdla çalışanlar arasında qadınları xüsusi çəkisi 0,9 faiz bəndlə (dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı) 8,8 faiz bənd arasında (Əczaçılıq məhsulları istehsalı) tərəddüd etməklə artıb çoxalmış; digərlərində isə 0,2 faiz bəndlə (kağız və karton istehsalı, maşın və avadanlıqların istehsalı sahələri) 6,8 faiz bənd arasında (Neft məhsulları istehsalı) tərəddüd etməklə azalmışdır.

Cədvəl 2.

**Azərbaycanın emal sənayesində muzdla çalışanlar arasında qadınların sayında və xüsusi çəkisində baş vermiş dəyişikliklər**

| Emal sanayesi sahələri | 2020-ci il | | | 2024-ci il | | | 2020-2024-cü illərdə | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi muzdla çalışanlar (min nəfər) | Onlardan qadınlar (min nəfər) | Qadınların xüsusi çəkisi %-lə | Cəmi muzdla çalışanlar (min nəfər) | Onlardan qadınlar (min nəfər) | Qadınların xüsusi çəkisi %-lə | Qadınların sayı %-lə | Onların xüsusi çəkisi (+) (-) |
| Emal sənayesi | 127132 | 32160 | 25,3 | 135972 | 37067 | 27,3 | 115,3 | +2,0 |
| O cüm: Qida məhsulları istehsalı | 30366 | 9903 | 32,6 | 35054 | 13706 | 39,1 | 138,4 | +6,5 |
| İçki istehsalı | 7732 | 2202 | 28,5 | 6991 | 1604 | 23,0 | 72,8 | -5,5 |
| Tütün məmulatları istehsalı | 1094 | 212 | 19,4 | 1302 | 280 | 21,5 | 132,1 | +2,1 |
| Toxuculuq sənayesi | 8958 | 3482 | 38,9 | 8446 | 2900 | 34,3 | 83,3 | -4,6 |
| Geyim istehsalı | 3149 | 1946 | 61,2 | 4517 | 3264 | 63,1 | 167,7 | +1,9 |
| Dəri və dridən məmulatların və ayaqqabıların istehsalı | 742 | 316 | 39,9 | 663 | 270 | 40,7 | 85,4 | +0,9 |
| Mebellərdən başqa ağac emalı və ağacdan mebellərin istehsalı | 1438 | 324 | 22,5 | 752 | 145 | 19,3 | 44,8 | -3,2 |
| Kağız və karton istehsalı | 1549 | 550 | 35,6 | 2255 | 799 | 35,4 | 145,3 | -0,2 |
| Poliqrafiya məhsullarının istehsalı | 2116 | 607 | 28,7 | 2481 | 828 | 33,4 | 136,4 | +4,7 |
| Neft məhsullarının istehsalı | 3868 | 1263 | 32,6 | 3991 | 1032 | 25,8 | 81,7 | -6,8 |
| Kimya sənayesi | 8655 | 2243 | 25,9 | 8464 | 2162 | 25,5 | 96,4 | -0,4 |
| Əczaçılıq məhsullarının istehsalı | 270 | 129 | 47,8 | 371 | 210 | 56,6 | 1628 | +8,8 |
| Rezin və plastik kütlə məhsullarının istehsalı | 6990 | 1574 | 22,5 | 6863 | 1612 | 23,5 | 102,4 | +1,0 |
| Tikinti materiallarının istehsalı | 13514 | 1494 | 11,1 | 11941 | 1492 | 16,1 | 99,8 | +5,0 |
| Metallurgiya sənayesi | 5747 | 576 | 10,0 | 6455 | 439 | 6,1 | 76,2 | -3,9 |
| Hazır metal məmulatlarının istehsalı | 4586 | 402 | 8,8 | 4223 | 406 | 9,6 | 100,9 | +0,8 |
| Komputer elektron və optik məhsulları istehsalı | 1634 | 468 | 28,6 | 390 | 89 | 22,8 | 19,0 | -5,8 |
| Elektrik avadanlıqlarının istehsalı | 4292 | 653 | 15,3 | 3510 | 595 | 17,0 | 91,1 | +1,7 |
| Maşın və avadanlıqların istehslı | 4400 | 1019 | 23,2 | 6273 | 1441 | 23,0 | 138,4 | -0,2 |
| Avtomobil və qoşquların istehsalı | 732 | 95 | 13,0 | 879 | 137 | 15,6 | 144,2 | +2,6 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 1587 | 362 | 22,8 | 1517 | 291 | 19,2 | 38,7 | -3,6 |
| Mebellərin istehsalı | 6211 | 1438 | 22,2 | 8592 | 1717 | 20,0 | 124,4 | -2,2 |
| Sair sənaye məhsullarının istehsalı | 1163 | 264 | 22,7 | 1866 | 444 | 23,8 | 168,2 | +1,1 |
| Maşın və avadanlıqların quraşdırılması və təmiri | 6289 | 638 | 10,1 | 8176 | 1204 | 14,7 | 188,7 | +4.6 |

**Mənbə:** Cədvəl [4, s.13–15] mənbəyi əsasında müəllif tərəfindən hazırlanmışdır.

Emal sənayesində iş qüvvəsindən, o cümlədən də qadın iş qüvvəsindən istifadənin vəziyyətini səciyyələndirən başlıca göstəricilərindən biri də onların emal sənaye sahələri arasında bölünməsi vəziyyətindən, daha doğrusu onların sahə məşğulluq quruluşundan ibarətdir. Aşağıdakı 3-cü cədvəlin məlumatlarından aydın olar ki, hazırda emal sənayesində muzdla çalışanların əksəriyyəti, daha doğrusu 72,8 faizi; qadınların isə 75,8 faizi 10 sənaye sahəsinin; yəni cəmi muzdla çalışanların 25,8; qadınların isə 37 faizi qida məhsulları istehsalı; müvafiq surətdə 5,2 və 4,3 faizi – içki istehsalı; 6,2 və 7,8 faizi – toxuculuq sənayesi; 3,3 və 2,8 faizi – geyim istehsalı; 6,2 və 5,8 faizi – kimya sənayesi; 7,9 və 4,0 faizi – tikinti materialları istehsalı; 6,5 və 4,6 faizi – mebellərin istehsalı; 5,1 və 4,9 faizi – rezin və plastik kütlə məmulatlarının istehsalı; 6 və 3,2 faizi – maşın və avadanlıqların istehsalı; 7,9 və 4 faizi isə maşın və avadanlıqların quraşdırılması və təmiri sahələrinin payına düşür. Ancaq təəssüflər olsun ki, hələ də Respublikamızda əczaçılıq sənayesi, kompüter, elektron və optika sənayesi və bu kimi digər sənaye sahələri lazımi səviyyədə inkişaf etdirilib ölkə ərazisində düzgün yerləşdirilmədiyindən həmin sahələrdə müvafiq surətdə muzdla çalışanların cəmi 0,4 və 0,3 faizini, o cümlədən qadınların 0,5 və 0,2 faizini təşkil edir. Eyni sözləri avtomobil və qoşquların istehsalı; dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı; mebeldən başqa ağacın emalı və ağacdan mebellərin istehsalı; kağız və karton istehsalı; poliqrafiya məhsullarının istehsalı; elektrik avadanlıqlarının istehsalı; tütün məmulatlarının istehsalı, sair nəqliyyat və sair sənaye vasitələrinin istehsalı sahələri haqqında da demək olar. Emal sənayesində iş qüvvəsindən istifadənin vəziyyətini səciyyələndirən göstəricilərdən biri də həmin sahədə muzdla çalışanların ölkənin iqtisadi rayonları arasında bölünməsindən ibarətdir.

Emal sənayesində məşğulluğun sahələr üzrə bölgüsünün təhlili göstərir ki, iş qüvvəsinin cəmləşməsi əsasən ənənəvi istehsal istiqamətlərində müşahidə olunur. Bu vəziyyət bir tərəfdən daxili bazarın tələbat strukturu və mövcud istehsal potensialı ilə izah edilsə də, digər tərəfdən yüksək texnologiyaya əsaslanan istehsal sahələrinin inkişaf səviyyəsinin hələ də məhdud olduğunu nümayiş etdirir. Xüsusilə qadın məşğulluğunun qida, toxuculuq və geyim sənayesi kimi əmək tutumlu sahələrdə daha yüksək paya malik olması əmək bazarında peşə ixtisaslaşmasının və gender bölgüsünün davam etdiyini göstərən mühüm göstəricilərdən biridir.

Digər tərəfdən, əczaçılıq, elektronika, optika və digər yüksək əlavə dəyər yaradan istehsal sahələrində məşğulluğun aşağı səviyyədə qalması emal sənayesinin texnoloji strukturunda mövcud olan disbalansın hələ tam aradan qaldırılmadığını göstərir. Bu isə iqtisadiyyatın innovasiya əsaslı inkişafı, yüksək ixtisaslı insan kapitalının səmərəli istifadəsi və rəqabətqabiliyyətli istehsalın genişləndirilməsi baxımından yeni çağırışlar formalaşdırır. Gələcək dövrdə emal sənayesində məşğulluğun daha balanslı strukturunun yaradılması üçün yüksək texnologiyalı istehsal sahələrinin inkişafının sürətləndirilməsi, regional sənaye zonalarının potensialından daha səmərəli istifadə edilməsi və əmək bazarının ixtisas tələblərinə uyğun kadr hazırlığının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, məşğulluğun sahələr üzrə mövcud bölgüsü iqtisadi rayonlar arasında sənaye fəaliyyətinin məkan baxımından qeyri-bərabər inkişaf etdiyini də göstərir. Bu baxımdan, emal sənayesinin regional diversifikasiyası, yeni istehsal müəssisələrinin iqtisadi rayonlar üzrə daha səmərəli yerləşdirilməsi və yerli əmək resurslarının istehsal prosesinə daha geniş cəlb edilməsi həm regional məşğulluğun artırılması, həm də ölkə üzrə sənaye inkişafının daha tarazlı xarakter alması baxımından strateji əhəmiyyət daşıyır.

Cədvəl 3.

**Azərbaycanın emal sənayesində muzdla çalışanların cins tərkibi üzrə sahə məşğulluq quruluşu (2024)**

| Emal sənayesi sahələri | Muzdla çalışanların sayı (nəfər) | Yekuna nisbətən %-lə | Onlardan qadınlar | |
|---|---|---|---|---|
| | | | Muzdla çalışan qadınların sayı (nəfər) | Yekuna nisbətən %-lə |
| Emal sənayesində cəmi | 135912 | 100,0 | 37067 | 100 |
| O cüm: Qida məhsulları istehsalı | 35054 | 25,8 | 13706 | 37,0 |
| İçki istehsalı | 6991 | 5,2 | 1604 | 4,3 |
| Tütün məmulatlarının istehsalı | 1302 | 1,0 | 280 | 0,7 |
| Toxuculuq sənayesi | 8446 | 6,2 | 2900 | 7,8 |
| Geyim istehsalı | 4517 | 3,3 | 3264 | 8,8 |
| Dəri və dəridən məmulatların və ayaqqabıların istehsalı | 663 | 0,5 | 270 | 0,7 |
| Mebeldən başqa ağacın emalı və ağacdan mebellərin istehsalı | 752 | 0,5 | 145 | 0,4 |
| Kağız və karton istehsalı | 2255 | 1,7 | 799 | 2,1 |
| Poliqrafiya məhsullarının istehsalı | 2481 | 1,8 | 828 | 2,2 |
| Neft məhsullarının istehsalı | 3991 | 3,0 | 1032 | 2,8 |
| Kimya sənayesi | 8464 | 6,2 | 2162 | 5,8 |
| Əczaçılıq məhsullarının istehsalı | 371 | 0,4 | 210 | 0,5 |
| Rezin və plastik kütlə məmulatlarının istehsalı | 6863 | 5,1 | 1812 | 4,9 |
| Tikinti materiallarının istehsalı | 11941 | 7,9 | 1492 | 4,0 |
| Metallurgiya sənayesi | 6455 | 4,7 | 439 | 1,1 |
| Hazır metal məmulatlarının istehsalı | 4223 | 3,7 | 406 | 0,9 |
| Kompüter, elektron və optik məhsullarının istehsalı | 390 | 0,3 | 89 | 0,2 |
| Elektrik avadanlıqlarının istehsalı | 3510 | 2,6 | 595 | 1,6 |
| Maşın və avadanlıqların istehsalı | 6273 | 4,6 | 1441 | 3,9 |
| Avtomobil və qoşquların istehsalı | 879 | 0,6 | 137 | 0,4 |
| Sair nəqliyyat vasitələrinin istehsalı | 1517 | 1,1 | 291 | 0,8 |
| Mebellərin istehsalı | 8592 | 6,5 | 1717 | 4,6 |
| Sair sənaye məhsullarının quraşdırılması və təmiri | 1866 | 1,4 | 444 | 1,2 |
| Maşın və avadanlıqların istehsalı | 8176 | 6,0 | 1204 | 3,2 |

**Mənbə:** Cədvəl [3, s. 13–15] mənbəyi əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkədə 2024-cü ilin rəsmi statistik məlumatlarına əsasən hazırda ölkənin emal sənayesində muzda çalışanların 66,6 faizi, o cümlədən qadınların 71,2 faizi ölkə əhalisinin cəmi 31,8; o cümlədən qadınların cəmi 32 faizinin məskunlaşdıqları Bakı şəhəri ilə Abşeron-Xızı iqtisadi rayonlarının, müvafiq surətdə 33,6 və 28,8 faizi isə ölkə əhalisinin 65,2, o cümlədən qadınların 68 faizinin məskunlaşdığı iqtisadi rayonların payına düşmüşdür. 4-cü cədvəlin məlumatları onu deməyə də əsas verir ki, hazırda respublikamızın emal sənayesi sahələrinin arasında bölünməsi vəziyyəti ölkənin iqtisadi rayonlarında məskunlaşmış əhalinin, o cümlədən iş qüvvəsindən səmərəli məşğulluğunun təmin edilməsi və işsizlik səviyyəsinin azaldılması baxımından qənaətbəxş deyildir. Qeyd edilən cədvəlin məlumatları onu da göstərir ki, respublikamızın əksəriyyət iqtisadi rayonlarında məskunlaşmış əhalinin xüsusi çəkisi ilə emal sənayesində muzdla çalışanların, o cümlədən də qadınların xüsusi çəkisi arasında lazımi tarazlıq yaradılmamış və bu sahədə kəskin fərqlər vardır. Belə ki, ölkə əhalisinin 5,9 faizi; o cümlədən qadınların 5,9 faizinin məskunlaşdığı Dağlıq Şirvanda emal sənayesində muzdla çalışanların cəmi 1,9 faizi, qadınların isə 1,3 faizi müvafiq surətdə Qarabağ iqtisadi rayonunda 7,4 və 7,7 faiz və 2,8 və 2,1 faiz; Lənkəran-Astara iqtisadi rayonunda 9,2 və 9,1 faiz və 3 və 2,8 faiz; Qazax-Tovuz iqtisadi rayonunda 6,6 və 6,6 və 2,7 və 1,6 faiz təşkil edir. Bu isə

o deməkdir ki, hazırda ölkənin ayrı-ayrı iqtisadi rayonlarında məskunlaşmış əhalinin xüsusi çəkisi ilə emal sənayesində muzdla çalışanların xüsusi çəkisi arasındakı fərq 2-3 dəfədən çoxdur. Bu deyilənlər isə onu göstərir ki, ölkə ərazisində yeni iş yerləri yaradılarkən ayrı-ayrı ərazilərdə mövcud olan iş qüvvəsinin kəmiyyəti və keyfiyyət tərkibi lazımi dərəcədə düzgün qiymətləndirilib nəzərə alınmır. Belə halların nəticəsidir ki, ölkəmizin ayrı-ayrı iqtisadi rayonlarında iqtisadi fəal əhalinin işsizlik səviyyəsi xeyli fərqli olmaqla özünü büruzə verir.

Cədvəl 4.

**Azərbaycan əhalisinin və emal sənayesində muzdla çalışanların ölkənin iqtisadi rayonları arasında bölünməsi və onların cins quruluşu (2024)**

| İqtisadi rayonlar | Əhalinin sayı (min nəfər və %-lə) | Onlardan qadınların sayı (min nəfər və %-lə) | Əhali arasında qadınların xüsusi çəkisi %-lə | Muzdla çalışanların sayı (nəfər və %-lə) | Onlardan qadınların sayı (nəfər və %-lə) | Muzdla çalışanlar arasında qadınların xüsusi çəkisi %-lə |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | 10202,8<br>100,0 | 5124,5<br>100,0 | 50,2 | 243920<br>100,0 | 56806<br>100,0 | 237 |
| Bakı şəhəri | 23 | 23,4 | 51 | 53 | 55 | 25,4 |
| Naxçıvan MR | 4,6 | 4,6 | 50,1 | 3,8 | 3,1 | 19,4 |
| Abşeron-Xızı | 8,8 | 8,6 | 50,3 | 13,5 | 16,2 | 28,3 |
| Dağlıq Şirvan | 3,2 | 3,1 | 49,5 | 1,9 | 1,3 | 23,2 |
| Gəncə-Daşkəsən | 5,9 | 5,9 | 50,3 | 4,8 | 4,1 | 19,7 |
| Qarabağ | 7,4 | 7,2 | 49,5 | 2,8 | 1,8 | 15,1 |
| Qazax-Tovuz | 6,6 | 6,6 | 49,9 | 2,7 | 1,6 | 13,4 |
| Quba-Xaçmaz | 5,4 | 5,3 | 49,7 | 2,2 | 2,4 | 24,6 |
| Lənkəran-Astara | 9,2 | 9,1 | 49,5 | 3,0 | 2,8 | 21,6 |
| Mərkəzi Aran | 7,2 | 7,1 | 50,6 | 3,9 | 3,1 | 18,4 |
| Mil-Muğan | 5,2 | 5,2 | 50,1 | 3,1 | 1,5 | 11,1 |
| Şəki-Zaqatala | 6,2 | 6,1 | 50,4 | 3,2 | 3,7 | 27,1 |
| Şərqi-Zəngəzur | 2,9 | 2,9 | 49,6 | 0,5 | 0,1 | 9,0 |
| Şırvan-Salyan | 4,4 | 4,9 | 50,5 | 5,1 | 33 | 15,2 |

**Mənbə:** Cədvəl [5, s. 98–100; 3, s. 13–15] mənbəyi əsasında müəllif tərəfindən hazırlanmışdır.

Təqdim edilən 5-ci cədvəlin məlumatlarından aydın görünür ki, son 5 il (2020-2024-cü illər) ərzində ölkə miqyasında işsizlik səviyyəsinin 1,9 faiz bənd azalaraq 7,2 faizdən 5,3 bəndə düşməsinə rəğmən Naxçıvan MR-da 3,5 bənd artaraq 0,1 faizdən 3,6 faizə; Şəki-Zaqatalada isə 0,8 faiz bənd artaraq 4,7 faizdən 5,5 faizə qalxmış; qalan iqtisadi rayonlarda isə 1,0 faiz bəndlə (Şərqi-Zəngəzur) 2,8 faiz bənd arasında (Quba-Xaçmaz və Lənkəran-Astara) tərəddüd etməklə azalmışdır. Buna görə də müvafiq dövlət-hökumət orqanları və sahibkarlar ölkəmizin müxtəlif ərazilərinin tarazlı inkişafına nail olmaq üçün işsizlərin sayının və işsizlik səviyyəsinin çox olduğu ərazilərdə yeni iş yerlərinin yaradılmasına qayğı göstərməlidirlər. Bu zaman işsizlərin cins tərkibinə də xüsusi diqqət yetirməli, kişi və qadın əməyinin üstünlüklə tətbiq edildiyi sahələr arasında tarazlığın yaradılmasına xüsusi diqqət yetirməlidir. Çünki, bəzi iqtisadi rayonlarda kişi əməyinin, digərlərində isə qadın əməyinin üstün tətbiq edilməsi üçün lazımi sayda müvafiq iş yerlərində olmaması səbəbindən birinci qeyd etdiyimiz iqtisadi rayonlarda qadın əməyinin tətbiq edilməsi üçün əlverişli iş yerlərində kişilər, adını çəkdiyimiz ikinci iqtisadi rayonlarda isə kişi əməyinin tətbiqi üçün əlverişli olan iş yerlərində isə qadın əməyindən istifadə edilir.

Cədvəl 5.

**Azərbaycan Respublikasının iqtisadi rayonlarında iqtisadi fəal əhalinin işsizlik səviyyəsinin dinamikası**

| !qtisadi rayonlar | 2020-ci il | | | | 2024-cü il | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | İqtisadi fəal əhalinin sayı (min nəfər) | Məşğul olanların sayı | İşsizlərin sayı (min nəfər) | İşsizlik səviyyəsi % | İqtisadi fəal əhalinin sayı (min nəfər) | Məşğul olanların sayı | İşsizlərin sayı (min nəfər) | İşsizlik səviyyəsi % |
| Azərbaycan | 5089,8 | 4721,1 | 368,7 | 7,2 | 5312,1 | 5029,8 | 282,3 | 5,3 |
| Bakı şəhəri | 1253,4 | 1151,1 | 86,4 | 7,0 | 1265,6 | 1205,0 | 60,7 | 4,8 |
| Naxçıvan MR | 251,6 | 251,3 | 0,3 | 0,1 | 269,0 | 259,3 | 9,7 | 3,6 |
| Abşeron-Xızı | 407,8 | 377,7 | 30,1 | 7,4 | 414,9 | 394,4 | 20,5 | 4,9 |
| Dağlıq Şirvan | 154,2 | 143,7 | 10,5 | 6,8 | 164,8 | 156,7 | 8,1 | 4,9 |
| Gəncə-Daşkəsən | 293,8 | 268,6 | 25,2 | 8,6 | 307,6 | 289,9 | 17,7 | 5,7 |
| Qarabağ | 356,0 | 326,8 | 29,2 | 8,2 | 377,2 | 351,8 | 25,3 | 6,7 |
| Qazax-Tovuz | 349,3 | 326,3 | 23,0 | 6,6 | 367,2 | 348,7 | 18,5 | 5,0 |
| Quba-Xaçmaz | 261,2 | 238,3 | 5,5 | 8,8 | 274,5 | 258,0 | 16,5 | 6,0 |
| Lənkəran-Astara | 458,2 | 421,4 | 23,0 | 8,0 | 478,2 | 453,5 | 24,8 | 5,2 |
| Mərkəzi Aran | 346,1 | 315,1 | 36,8 | 8,9 | 361,7 | 338,4 | 23,3 | 6,5 |
| Mil-Muğan | 262,6 | 242,7 | 30,9 | 7,6 | 274,2 | 261,7 | 12,5 | 4,6 |
| Şəki-Zaqatala | 341,0 | 321,3 | 19,7 | 4,7 | 367,0 | 346,9 | 20,1 | 5,5 |
| Şərqi-Zəngəzur | 136,9 | 123,4 | 13,6 | 8,4 | 145,1 | 134,4 | 10,8 | 7,4 |
| Şırvan-Salyan | 233,5 | 213,4 | 20,1 | 7,3 | 245,1 | 231,2 | 13,4 | 5,7 |

**Mənbə:** Cədvəl [1, s. 168–179] mənbəyi əsasında müəllif tərəfindən hazırlanmışdır.

Bu sahədəki vəziyyət emal sənayesinin ayrı-ayrı sahələrində xüsusilə fərqli surətdə özünü büruzə verməkdədir. Bunu ondan görmək olar ki, hazırda toxuculuq, qida məhsulları istehsalı, poliqrafiya məhsulları istehsalı və digər bu kimi qadın əməyinin geniş istifadə edilməli olduğu sahələrdə çalışanların 63,0-67 faizi kişilərdir. Respublikamızda və onun ayrı-ayrı iqtisadi regionlarında əhalinin səmərəli məşğulluğunun təmin edilməsi sənayenin başqa sahələri ilə yanaşı emal sənaye sahələrinin, xüsusilə də qadın əməyinin üstünlüklə tətbiq edildiyi sahələrin inkişaf etdirilib düzgün yerləşdirilməsini tələb edir. Bunun üçün həmin sahələrin inkişafına xüsusi qayğı göstərilməsi və həmin sahələrin inkişafına investisiya qoyuluşlarının həcmi artırılmalıdır. Ancaq təəssüflər olsun ki, son 5 il ərzində (2020-2024-cü illər) ölkənin emal sənayesində əsas kapitala yönəldilmiş daxili investisiyanın məbləği artmaq əvəzinə daha da azalmışdır. Belə ki, qeyd edilən dövrdə ölkə sənayesində əsas kapitala yönəldilmiş daxili investisiyanın məbləği 4,2 faiz azalaraq 5,2 milyard manatdan 5,0 milyard manata, o cümlədən emal sənayesində 45,7 faiz azalaraq 2,6 milyard manatdan 1,4 milyard manata [6, s.64], müvafiq surətdə xarici investisiyanın məbləği isə sənayedə 26 faiz azalaraq 3,8 milyard manatdan 2,8 milyard manata, emal sənayesində isə 89,6 faiz azalaraq 2,0 milyard manatdan 20,7 milyon manata düşmüşdür [6, s.77]. Lakin buna baxmayaraq son 5 il (2000-2024-cü illər) ərzində ölkədə fəaliyyət göstərən emal sənayesi müəssisələrinin sayı təqribən 1,7 dəfə (169,3 faiz) artaraq 2515-dən 4259-a, o cümlədən qida məhsulları istehsal edən müəssisələrin sayı 146,6 faiz artaraq 487-dən 714-ə; içki istehsal edən müəssisələrin sayı təqribən 1,6 dəfə (159,5 faiz) artaraq 131-dən 209-a; geyim istehsal edən müəssisələrin sayı 1,7-dəfədən çox (174,1 faiz) artaraq 112,-dən 195-ə; poliqrafiya məhsulları istehsalı müəssisələrinin sayı 1,6 dəfədən çox (161 faiz) artaraq 177-dən 277-ə; rezin və plastik kütlə məmulatları istehsalı müəssisələrinin sayı təqribən 1,7 dəfə (169,4 faiz) artaraq 147-dən 249-a; kimya sənayesi müəssisələrinin sayı təqribən 2 dəfə (198,2 faiz) artaraq 110-dan 218-ə; hazır metal məhsulları istehsalı müəssisələrinin sayı 1,6 dəfədən

çox (165,8 faiz) 115-dən 257-ə; tikinti materialları istehsalı müəssisələrinin sayı 1,5 dəfədən çox (153,4 faiz) artaraq 266-dan 408-ə; maşın və avadanlıqların quraşdırılması və təmiri müəssisələrinin sayı 2,2 dəfədən çox (224,9 faiz) artaraq 225-dən 506-ya; metallurgiya sənayesi müəssisələrinin sayı təqribən 1,9 dəfə (186,4 faiz) artaraq 59-dan 114-ə çatmışdır [3, s. 31–32]. Ümumiyyətlə, qeyd edilən dövrdə ölkənin emal sənaye müəssisələrinin sayı 131,3 faizlə (kompüter, elektron və optik məhsullar istehsalı) 226,6 faiz arasında (mebellərin istehsalı) artıb çoxalmışdır. Ancaq burada onu da qeyd etmək lazımdır ki, 2024-cü ilin rəsmi statistik məlumatlarında əsasən respublikamız 24 emal sənayesində fəaliyyət göstərmiş 4259 sənaye müəssisələrində muzdla çalışanların sayı 135972 nəfər təşkil etmiş və ya orta hesabla hər bir müəssisədə çalışanların sayı orta hesabla 32 nəfər olmuşdur. Həmin 24 sənaye sahəsinin 4-nü, yəni 16,7 faizini hər birində orta hesabla cəmi 8-15 nəfər, (onlardan mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı sahəsində fəaliyyət göstərmiş 88 müəssisənin hər birində orta hesabla 8 nəfər; poliqrafiya məhsulları istehsal edən 277 müəssisənin və kompüter, elektron və optik məhsulları istehsal edən 42 müəssisənin hər birində orta hesabla 9 nəfər; əczaçılıq məhsulları istehsal edən 24 müəssisənin hər birində orta hesabla 15 nəfər çalışmışdır); 8-ni, yəni 33,3 faizini hər birində orta hesabla 16-30 nəfər (onlardan hazır metal məmulatları istehsal edən 257 müəssisənin; sair sənaye məhsulları istehsal edən 114 müəssisənin və maşın və avadanlıqların quraşdırılması və təmiri ilə məşğul olan 506 müəssisənin hər birində orta hesabla 16 nəfər dəri və dəridən məmulatlar ayaqqabıları istehsal edən 37 müəssisənin hər birində 18 nəfər; geyim istehsal edən 195 müəssisənin hər birində orta hesabla 23 nəfər; kağız və karton istehsal edən 86 müəssisənin hər birində orta hesabla 26 nəfər; rezin və plastik kütlə məmulatları istehsal edən 249 müəssisənin hər birində 27 nəfər; tikinti materialları istehsal edən 408 müəssisənin isə hər birində - 29 nəfər çalışmışdır); 6-nı və ya 25 faizini hər birində orta hesabla 31-50 nəfər (onlardan mebel istehsal edən 278 müəssisənin hər birində orta hesabla 31 nəfər; elektrik və avadanlıqları istehsal edən 108 müəssisənin hər birində orta hesabla – 32 nəfər; içki istehsal edən 209 müəssisənin hər birində orta hesabla 33 nəfər; avtomobil, qoşqu və yarımqoşqular istehsal edən 25 müəssisənin hər birində orta hesabla 35 nəfər; 218 kimya sənayesi müəssisənin hər birində orta hesabla 39 nəfər qida məhsulları istehsal edən 714 müəssisənin hər birində orta hesabla 49 nəfər çalışmışdır) və nəhayət 6-nı, yəni 25 faizini hər birində orta hesabla 50 və yuxarı nəfər çalışan (onlardan sair nəqliyyat vasitələri istehsal edən 31 müəssisənin hər birində orta hesabla 51 nəfər; maşın və avadanlıqlar istehsal edən 120 müəssisənin hər birində orta hesabla 52 nəfər; 114 metallurgiya sənayesi müəssisənin hər birində orta hesabla 56 nəfər; tikinti məhsulları istehsal edən 23 müəssisənin hər birində orta hesabla 70 nəfər; 116 toxuculuq müəssisəsinin hər birində orta hesabla 73 nəfər; neft məhsulları istehsal edən 20 müəssisənin hər birində isə orta hesabla təqribən 200 nəfər çalışnışdır) sənaye sahələri təşkil edir.

Bütün bunlar onu göstərir ki, hazırda ölkəmizin emal sənayesi sahəsində fəaliyyət göstərən sənaye müəssisələrinin əksəriyyətini, yəni 75,0 faizini orta hesabla hər birində 8-50 nəfər işçisi olan müəssisələr təşkil edir [3, s. 16–30, 31–32]. Bunu ölkənin emal sənayesi sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mikro, kiçik və orta sahibkarlıq subyektləri arasında bölünməsi vəziyyətindən də aydın görmək olar. 2024-cü ilin rəsmi statistikasına əsasən respublikamızın emal sənayesi sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 63,3 faizi ayrı-ayrı istehsal sahələri üzrə 52,2 faizlə (tütün məhsulları istehsalı) 86,6 faiz (poliqrafiya məhsulları istehsalı) arasında tərəddüd etməklə mikro sahibkarlıq subyektlərinin**;** 21,5 faizi ayrı-ayrı istehsal sahələri üzrə 5,0 faizlə (neft məhsulları istehsalı) 33,7 faiz (kağız və karton istehsalı) arasında tərəddüd etməklə kiçik

sahibkarlıq subyektlərinin; 13,2 faizi isə ayrı-ayrı istehsal sahələri üzrə 4,0 faizlə (poliqrafiya məhsulları istehsalı) orta sahibkarlıq subyektlərinin payına düşür [3, s.37–38].

Burada onu da qeyd etmək lazımdır ki, hazırda emal sənayesində məşğul olanların orta aylıq nominal əmək haqqının məbləği də ölkə sənayesində olduğuna nisbətən xeyli azdır. Belə ki, 2024-cü ildə ölkə sənayesində muzdla çalışanların orta aylıq nominal əmək haqqının məbləği 1561,7 manat, mədənçıxarma sənayesində 3561,4 manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatında 1097,1 manat təşkil edirsə emal sənayesində 905,3 manat təşkil edir. Başqa sözlə desək emal sənayesində muzdla çalışanların orta aylıq nominal əmək haqqının məbləği ölkə sənayesində olduğuna nisbətən 1,7 dəfə, mədənçıxarma sənayesində olduğuna nisbətənsə 3,9 dəfə aşağıdır [1, s. 61]. Təsadüfi deyildir ki, son 10 il ərzində (2015-2024-cü illərdə) ölkə iqtisadiyyatında işdən çıxanların 75,8-84,5 faizi, mədənçıxarma sənayesində 62,5-74,4 faizi öz xahişi ilə işdən çıxanların payına düşmüşdürsə, bu göstərici emal sənayesində xeyli yüksək, yəni 78,4-88,6 arasında tərəddüd etməklə dəyişmişdir [1, s.41]. Qeyd edilən dövrdə hər il emal sənayesində işdən çıxanların sayı işə qəbul edilənlərin təqribən 88-89 faizini təşkil etmişdir [1, s.34]. Bu danılmaz faktdır ki, hazırda emal sənayesində muzdla çalışanların xeyli hissəsi iş yerində sanitar-gigiyena şəraitinə cavab verməyən iş yerlərinin, o cümlədən 35,4 faizi səs-küyün normadan artıq olduğu iş yerlərində, 33,5 faizi zərərli kimyəvi maddələrin artıq olduğu iş yerlərində, 20,5 faizi ventilyasiyanın (titrəmələrin) normadan artıq olduğu iş yerlərində çalışırlar ki, onların da 14-15 faizi qadınların payına düşür [1, s.50]. Nəticədə qeyd edilən sənaye sahəsində iş qüvvəsinin sabitlik səviyyəsinin təmin edilməsində xeyli çətinliklər yaradır. Aparılan araşdırmalarımızın nəticələri göstərir ki, bütünlükdə ölkə sənayesində olduğu kimi emal sənayesi sahələrində də uzun illərdən bəri davam edən əlverişsiz əmək şəraitinin yaxşılaşdırılması və iş qüvvəsinin sabitlik səviyyəsinin yüksəlməsi istiqamətində təsirli tədbirlər görülmür. Nəticədə, başqa sənaye sahələrində olduğu kimi emal sənayesində də hələlik iş qüvvəsindən lazımi dərəcədə səmərəli istifadə olunmur.

**Nəticə**

Perspektivdə emal sənaye sahələrinin iş qüvvəsinə olan tələbatının ödənilməsi və həmin sahələrdə səmərəli məşğulluğun təmin edilməsi üçün aşağıdakı tədbirlərin hazırlanıb və həyata keçirilməsini tələb edir:

- ✓ Ölkənin ayrı-ayrı iqtisadi rayonlarında, onların şəhər və kənd yerlərində mövcud olan iş qüvvəsinin kəmiyyət-keyfiyyət tərkibinin aşkara çıxarılıb qiymətləndirilməsini;
- ✓ Ayrı-ayrı iqtisadi rayonlarda emal sənayesinin bu və ya digər sahəsinin inkişafı üçün mövcud olan imkanların aşkara çıxarılıb qiymətləndirilməsini;
- ✓ Ayrı-ayrı iqtisadi rayonlarda, onların şəhər və kənd yerlərində mövcud olan iş qüvvəsinin iş yerlərinə olan tələbinə uyğun müvafiq emal sənaye sahələrinin inkişaf etdirilməsini;
- ✓ Qadın və kişi əməyinin üstünlüklə tətbiq edildiyi emal sənaye sahələri arasında müvafiq tarazlığın yaradılmasını;
- ✓ Yeni yaradılmış iş yerlərində normal əmək şəraitinin yaradılması (iş yerlərinin sanitar-gigiyena şəraitinə uyğun olması; münasib iş yerlərinin, daha doğrusu əmək haqqının əlçatan olması və s.);
- ✓ İş qüvvəsi axıcılığının azaldılması və sənaye müəssisələrində iş qüvvəsinin sabitliyinin təmin edilməsi üçün xüsusi tədbirlər işlənib hazırlanması və həyata keçirilməsini;

- ✓ Ayrı-ayrı iqtisadi rayonlarda yeni istehsal sahələri və iş yerlərinin açılmasının elmi cəhətdən düzgün əsaslandırılması məqsədilə həmin ərazilərdə mövcud olan iş qüvvəsinin cins-yaş tərkibi üzrə sayı, təhsil səviyyələri, o cümlədən orta ixtisas, ali və peşə təhsilinə malik olanlarına dair məlumatların DSK-si tərəfindən hər il nəşr edilən "Əmək bazarı" adlı statistik məcmuələrdə öz əksini tapmasının təmin edilməsi üçün Azərbaycan Dövlət Statistika Komitəsinə təkliflər təqdim edilməsini.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2025.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın sənayesi: statistik məcmuə. Bakı, 2014.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın sənayesi: statistik məcmuə. Bakı, 2025.
4. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın sənayesi: statistik məcmuə. Bakı, 2024.
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın demoqrafik göstəriciləri: statistik məcmuə. Bakı, 2025.
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda tikinti: statistik məcmuə. Bakı, 2025.

**Daxil olub: 15.04.2026.**
**Çapa qəbul olunub: 12.05.2026**